# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ VƏ AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ ARASINDA BİRGƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA

## MEMORANDUMU

**Bakı şəhəri** **"04" dekabr 2014-cü il**

### Giriş:

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Azərbaycan Respublikası Təhsil Nazirliyi aşağıdakılar barədə razılığa gələrək bu Anlaşma Memorandumunu imzaladılar:

Nəzərə alaraq ki,

- Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz Nizamnaməsinə, Azərbaycan Qızıl Aypara Cəmiyyəti Haqqında Azərbaycan Respublikasının Qanununa, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Nizamnaməsinə uyğun şəkildə roluna riayət etməklə müxtəlif humanitar istiqamətlərdə hökumətə yardımçıdır.
- Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2005-ci il tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"yə uyğun olaraq təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, təhsil prosesinə ümumi metodiki rəhbərliyi həyata keçirən müvafiq icra hakimiyyəti orqanıdır.

### Məqsəd:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin həyata keçirdiyi fəaliyyətin Azərbaycan Respublikası daxilində əsasən dövlət təhsil müəssisələrində reallaşdırılmasını nəzərə alaraq, bu işlərin rahat və maneəsiz şəkildə həyata keçirilməsi üçün bu sahəyə cavabdeh olan əsas dövlət qurumu ilə rəsmi əməkdaşlıq istiqamətlərini müəyyənləşdirmək.

## Azərbaycan Qızıl Aypara Cəmiyyəti:

- Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz beynəlxalq və yerli mandatına uyğun olaraq Təhsil Nazirliyinin müvafiq müraciətinə əsasən Nazirliyin yurisdiksiyasına aid olan bütün təhsil müəssisələrində fəaliyyət göstərən aztəminatlı müəllim və digər əməkdaşlara, aztəminatlı ailələrin, şəhid ailələrindən, müharibə veteranlarının, məcburi köçkün və qaçqın ailələrindən olan məktəblilərə və tələbələrə ehtiyaclara uyğun şəkildə, imkanlar daxilində müvafiq yardımın verilməsini həyata keçirir;
- Azərbaycan Qızıl Aypara Cəmiyyəti Təhsil Nazirliyinin müraciəti əsasında təhsil alan insanlara özünün Humanitar Yardım, Beynəlxalq Hunmanitar Hüququn əsasları, Beynəlxalq Humanitar Dəyərlər, Fövqəladə Hallara Hazırlıq və Cavabvermə, Axtarış Xidməti, Sağlamlıq və Qayğı (İİV/QİÇS-lə mübarizə, Vərəmlə mübarizə, Tütünə Qarşı Mübarizə, Sağlam Həyat Tərzi, İlk Yardım, Psixososial dəstək və s.), Gənclər və Könüllülər, Miqrasiya, İcmaların İnkişafı, Silahlara Qarşı Mübarizə sahələrində lazımi seminarlar, təlimlər, sessiyalar, mühazirələr, kütləvi tədbirlər, kampaniyalar, aksiyalar, nümayişlər təşkil edir;
- Azərbaycan Qızıl Aypara Cəmiyyəti özünün Beynəlxalq Hərəkata aid olan tərəfdaş təşkilatları ilə birgə yerli və Beynəlxalq səviyyədə təşkil etdiyi yay düşərgələrinə və s. əlaçı şagird və tələbələrin Təhsil Nazirliyinin təqdim etdiyi siyahı əsasında cəlb olunmasını həyata keçirir;
- Azərbaycan Qızıl Aypara Cəmiyyətinin strukturlarında dövlət ali təhsil müəssisələrinin humanitar sahəyə aid olan fakültələrinin tələbələri üçün müvafiq İstehsalat – Təcrübəsinin keçirilməsini təşkil və təmin edir;
- Azərbaycan Qızıl Aypara Cəmiyyəti təhsil ocaqlarında Yol Hərəkəti Qaydaları və Yol Təhlükəsizliyi üzrə təbliğatı nəzərdə tutan müvafiq cəlb edici tədbirlər təşkil edir;
- Azərbaycan Qızıl Aypara Cəmiyyəti digər tərəflə əməkdaşlıq memorandumundan irəli gələn fəaliyyətləri tənzimləmək, əlaqələndirmək məqsədi ilə özünün Baş Qərargahının məsul nümayəndələrindən ibarət İşçi Qrup yaradır və bu barədə tərəfdaşa rəsmi məktubla məlumat verir.

## Azərbaycan Respublikası Təhsil Nazirliyi:

- Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə yuxarıda qeyd olunan bütün istiqamətlərdə əməkdaşlığın həyata keçirilməsini təmin edir;
- Azərbaycan Respublikası Təhsil Nazirliyi humanitar sahədə həyata keçirdiyi tədbirlərə digər tərəfi dəvət edir;
- Azərbaycan Respublikası Təhsil Nazirliyi Beynəlxalq təşkilatların proqramları çərçivəsində və tövsiyələri ilə həyata keçirilən layihələrə digər tərəfi cəlb edir.

**Razılaşma:**

- Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir.
- Anlaşma Memorandumu tərəflərdən birinin təşəbbüsü ilə digər tərəfi 1 (bir) ay öncədən xəbərdar etməklə ləğv oluna bilər.
- Anlaşma Memorandumuna tərəflərin birgə razılığı və təşəbbüsü ilə əlavələr və ya dəyişikliklər edilə bilər.

**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyi**

**Nazir**
**Mikayıl Cabbarov**

“04” 12 **2014-cü il**

**Azərbaycan Qızıl**
**Aypara Cəmiyyəti**

**Prezident**
**Novruz Aslanov**

“04” 12 **2014-cü il**